

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 88 (21.749)

10 may 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymət 20 qəpik


### Rəsmi xronika

Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 72-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin veteranları ilə görüşüblər, onları Böyük Qələbə münasibətilə təbrik ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşüblər, Qələbə Günü münasibətilə onları təbrik ediblər, xatirə şəkli çəkdiriblər.

Dövlətimizin başçısı və birinci xanım iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoyublar, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdiriblər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçib.



## Naxçıvanda faşizm üzərində qələbənin 72-ci ildönümü qeyd olunmuşdur





Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə kompleksinə gələrək Böyük Vətən müharibəsi veteranları ilə görüşmüş, onları alman faşizmi üzərində qələbənin 72-ci ildönümü münasibətilə təbrik etmişdir.

Ali Məclisin Sədri kompleksdəki abidənin önünə tər gül dəstəsi qoymuş, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə dərin ehtiramını bildirmişdir.

Mərasim iştirakçıları və ictimaiyyətin nümayəndələri də abidə önünə gül dəstələri düzmüşlər.

Sonra Dövlət Himni səsləndirilmişdir.

Azərbaycan xalqı faşizm üzərində tarixi qələbəyə mühüm töhfələr vermiş, cəbhəyə 600 mindən çox oğul və qızını yola salmışdır. Azərbaycanlı çağırışçılardan və könüllülərdən ibarət 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı atıcı diviziyalar böyük qəhrəmanlıq göstərərək Zaqafqaziya cəbhəsindən Berlinədək qanlı-qadalı döyüş yolu keçmişlər. Xalqımız arxa cəbhədə də misilsiz əmək hünərləri göstərmiş, ordunun ehtiyaclarını ödəmək üçün gecə-gündüz fədakarlıqla çalışmışdır. Böyük Qələbəyə Bakı neftinin töhfəsi əvəzsiz olmuşdur.



Naxçıvanlılar da müharibədə qəhrəmancasına döyüşmüş, qələbənin qazanılmasında öz töhfələrini vermişlər. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınmış, göstərdikləri igidliklərə görə 3 həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 600-ə yaxını orden və medallarla təltif olunmuşdur.

1941-1945-ci illər veteranlarını ***"xalqın qızıl fondu"*** adlandıran ümummilli lider Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə müharibə veteranlarının qayğılarına diqqətlə yanaşmış, onların sosial məsələlərinin həlli istiqamətində mühüm qərarlar qəbul etmişdir. Görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May ölkəmizdə Qələbə Günü kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmişdir.

Ulu öndərimizin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də müharibə veteranlarına xüsusi qayğı göstərir. 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi bu diqqət və qayğının parlaq ifadəsidir.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Hər bir gənc veteranlarımızın qəhrəmanlıq nümunələrindən, əmək fədakarlığından özü üçün nümunə götürməlidir. O qəhrəmanlıq nümunələri bugünkü nəslimiz, gələcək nəsillər üçün örnək, məktəb, təcrübə mənbəyi olmalıdır".***

Həmin gün Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində də faşizm üzərində qələbənin 72-ci ildönümü münasibətilə tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olmuşdur

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin, Azərbaycan Respublikası Prezidentinin mükafatının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərinə layiq görülmələri münasibətilə təbrik edərək demişdir: Dövlət təltifləri o ölkədə olur ki, həmin ölkədə inkişaf, sabitlik və dövlət-xalq birliyi vardır. Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bütün sahələrdə inkişafa nail olunmuş, sabitlik və dövlət-xalq birliyi təmin edilmişdir. Ümummilli liderin müəyyənləşdirdiyi yol bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmiz inkişaf edir, müxtəlif sahələrdə çalışan və fərqlənən insanlar dövlət mükafatları ilə təltif olunurlar. Bütün bunlar dövlətimizin gələcək inkişafına xidmət etməklə yanaşı, həm də yeni nəsillər üçün nümunədir.

Ali Məclisin Sədri demişdir: Bu gün 9 May Qələbə bayramıdır. Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm insan resursları, həm də təbii resursları ilə iştirak edərək qələbəyə öz layiqli töhfəsini vermişdir. Həmçinin bugünkü tədbir ümummilli liderimiz Heydər Əliyevin doğum günü ərəfəsində keçirilir. Hər il mayın 10-u ölkəmizdə əlamətdar gün kimi qeyd olunur. Çünki ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycan xalqının və dövlətinin tarixinə çevrilib. Bu gün ümummilli liderimiz Heydər Əliyevin yolu ölkəmizdə davam etdirilir, yaşadılır. Azərbaycanda Heydər Əliyev yoluna alternativ yoxdur. Heydər Əliyev yolu dövlətçilik, dövlət-xalq birliyi, müstəqillik və inkişaf yoludur. Azərbaycan dövlətinin inkişafı, müstəqilliyimizin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi, xalqımızın firavan həyatının təmin olunması ulu öndər Heydər Əliyev yolunun bəhrəsidir. Ona görə də öz fəaliyyətləri ilə fərqlənən, ulu öndərin yoluna, dövlətçiliyə töhfələr verənlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Ali Məclisin Sədri təltif olunanları və onların timsalında bütün muxtar respublika əhalisini ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının ildönümü və Qələbə bayramı münasibətilə təbrik etmiş,

*Ardı 2-ci səhifədə*





gələcək işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri medalların, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini, Azərbaycan Respublikası Prezidentinin mükafatını təqdim etmişdir.

Təltif olunanlardan Aytən Məmmədova, Tofiq Seyidov, Sahil Əliyev, Hüseyn Qarayev, Şəhruz Cəfərov, Tural Bağırov, Azər Cəfərli, Fatma Əliyeva, Zülfiyyə Zeynalova və Nəsibə Hüseynova əməklərinə verilən qiymətə görə minnətdarlıq etmişlər. Qeyd olunmuşdur ki, ölkəmizdə ulu öndərin siyasi xəttinin uğurla davam etdirilməsi bütün sahələrdə inkişafı təmin etmişdir. Bu gün xalqımız müstəqil ölkəmizdə sabitlik və rifah içində yaşayır. İnkişaf, tərəqqi və davamlı dövlət qayğısı insanları daha yaxşı işləməyə sövq edir. Təltif olunanlar bundan sonra da ulu öndərin siyasi xəttinə öz töhfələrini verməyə, vətənimizin inkişafında pay sahibi olmağa söz vermişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Müstəqil Azərbaycanın rəmzi

***Tarix, şəxsiyyət və xalq anlayışları arasında belə bir qızıl asılılıq aksiomu mövcuddur: tarixi məhz dahi şəxsiyyətlər öz işıqlı əməlləri ilə yazır və tarixdə yaşayırlar. Nadir şəxsiyyət və dühanın tarixi məhvərindən dəyişə bilməsi üçün isə tarixi zərurətin yaranması mütləqdir, labüddür. Hər hansı bir xalqın var oluşu isə bilavasitə onun lider yetirə bilməsinə, o lideri müəyyən tarixi situasiyalarda qoruyaraq ətrafında birləşə bilməsinə bağlıdır. Xalqın müqəddəratını düzgün həll etmək iqtidarında olan dühalar elə xalqın ömrü qədər də əbədiyyət qazanır, bütünlükdə, bəşər tarixində iz qoya bilirlər. Azərbaycan xalqının ümummilli lideri, Azərbaycanın əbədilik rəmzi olan dahi Heydər Əliyev kimi...***

Görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əliyev yeganə dahi şəxsiyyətdir ki, bir-birindən fərqli üç mürəkkəb siyasi-tarixi mərhələdə: sovet rejimi zamanı (1969-1986), keçid dövrü (1987-1990) və müstəqillik illərində (1991-2003) eyni siyasi qətiyyətlə möhtəşəm siyasi uğurlara imza atmışdır. Ümummilli lider Heydər Əliyev siyasi müdriklik və dühası ilə hələ totalitar sovet rejimi dövründə Azərbaycan xalqının müstəqil dövlətçilik konsepsiyasını formalaşdırmış, sonralar isə ilk tarixi fürsətdə elə özü də bu mühüm siyasi konsepsiyanı həyata keçirmişdir. Düz 35 illik bir epoxanın aparıcı şəxsiyyəti, nəhəng siması olan dahi öndərin böyük siyasətdə qət etdiyi çətin və şərəfli yol, siyasi iradə və obyektiv mövqe, atdığı qətiyyətli addımlar, Azərbaycan xalqı və dövlətçiliyinə bəxş etdiyi töhfələr əsl məktəbdir. Heydər Əliyev siyasi məktəbi...

1923-cü il mayın 10-da Azərbaycanın qədim Naxçıvan diyarında dünyaya göz açan, gəncliyindən öz dərin zəkası və fitri istedadı ilə seçilən, sovet dövlət təhlükəsizlik orqanlarında çalışmaqla siyasi yetkinlik qazanan, dövlət idarəçiliyi sirlərinə yiyələnən ulu öndər Heydər Əliyevin 1969-cu il iyul ayının 14-dən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi fəaliyyət göstərdiyi dövr, iqtisadi-siyasi tənəzzül içində olan Sovet Azərbaycanı üçün dirçəliş dövrü kimi tarixə düşmüşdür. Belə ki, dahi rəhbər yetmişinci illərin əvvəllərində sənaye və kənd təsərrüfatının inkişafına əsaslı təkan verəcək çox mühüm qərarlar qəbul etmiş, bunun nəticəsində 250-dən çox yeni sənaye müəssisəsi işə salınmış, respublikada istehsal olunan 350 adda məhsulun dünyanın 65 ölkəsinə ixracına başlanmış, 14 il ərzində 1048 sənaye obyekti tikilmiş, yeni iş yerlərinin açılması ilə əhalinin sosial rifah halı yaxşılaşdırılmışdır.

Bu dövrdə elm, təhsil, səhiyyə və mədəniyyət inkişaf etdirilmiş, xalqın və ölkənin gələcəyinə hesablanmış kadr siyasəti sayəsində müxtəlif sahələr üzrə güclü kadr potensialı yaradılmışdır. Sonralar Azərbaycanda müstəqil dövlətçilik uğrunda mübarizədə həlledici rol oynayan vətənpərvər nəslin, milli ziyalılar ordusunun formalaşması məhz dahi Heydər Əliyevin xalqımız qarşısındakı əvəzsiz xidmətlərindəndir. Azərbaycanın bugünkü hərbi uğurları, milli hərbi kadrların formalaşması ümummilli lider Heydər Əliyevin qeyri-adi cəsarəti, şəxsi təşəbbüsü ilə 1971-ci ildə Azərbaycanda ilk hərbi məktəbin, Cəmşid Naxçıvanski adına hərbi təhsil ocağının yaradılması ilə bağlıdır.

Başlıcası isə ümummilli liderin sovet hakimiyyəti illərindəki siyasi fəaliyyəti milli şüurun oyanmasına, azadlıq ideyalarının pərvəriş tapmasına xidmət etmişdir. Bu dahi şəxsiyyətin milli kadrların formalaşdırılması istiqamətində apardığı çoxcəhətli işlər, həyata keçirdiyi məqsədyönlü dövlət siyasəti xalqımızın gələcək müstəqilliyə hazırlanmasına hədəflənmişdir. Ulu öndərimiz böyük cəsarətlə milli mənsubiyyətimizə, ana dilimizə, soykökümüzə, bütün milli və mənəvi dəyərlərimizə sahib çıxmış, tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi təbliğ edən milli ziyalılığın hamisi, müdafiəçisi olmaqla onları milli təfəkkürü formalaşdırmağa, milli özünüdərkə və oyanışa xidmət etməyə sövq etmişdir.

Ümummilli lider 1982-1987-ci illərdə Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək dövlət vəzifələrində fəaliyyət göstərəndə də Azərbaycanın mənafeyi naminə çalışmış, ittifaq büdcəsinin maliyyə imkanlarının respublikamızın inkişafına yönəldilməsinə nail olmuşdur.

Xalqımızın böyük oğlu 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir. Azərbaycana edilmiş hərbi təcavüzdən – 1990-cı ilin 20 Yanvar faciəsindən sonra sovet rəhbərliyini kəskin şəkildə ittiham edən ulu öndərə qarşı böyük təzyiqlər başlandı. Moskvadan Bakıya – canı, varlığı qədər sevdiyi doğma Azərbaycanına dönən, ağır gündə xalqı ilə bir yerdə olmaq istəyən ulu öndər burada da totalitar rejimin və onun yerli əlaltılarının xəyanətkar hərəkətləri ilə üzləşdi. Bütün bunlara baxmayaraq, O, 1990-cı il iyun ayının 20-də Bakıya, iki gün sonra isə doğma Naxçıvana gəlmiş, burada böyük izdiham, sevgi və coşqu ilə qarşılanmışdır.

Ümummilli liderin Naxçıvana dönüşü tarixi zərurət idi. Çünki XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində bütün Azərbaycanda, xüsusilə də Naxçıvanda mürəkkəb ictimai-siyasi şərait hökm sürürdü: sovet imperiyası rəhbərliyi Azərbaycanın maraqlarına zidd siyasətindən əl çəkmir, ermənilərin Naxçıvana ərazi iddiaları və sərhədlərdə hərbi toqquşmalar tüğyan edir, Naxçıvan sosial-iqtisadi tənəzzül, ictimai-siyasi anarxiya, işğal təhlükəsi altında yaşayırdı. Azərbaycanla nəqliyyat-kommunikasiya əlaqələri kəsilərndən sonra iqtisadi və siyasi böhran içində boğulan, erməni təcavüzü qarşısında əliyalın və köməksiz vəziyyətdə qoyulan Naxçıvanı xilas edə biləcək yeganə rəhbər məhz görkəmli dövlət xadimi Heydər Əliyev ola bilərdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Moskvadan Naxçıvana qayıdış o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, Vətənə qayıdış idi. Böyük siyasətə yenidən və fəal şəkildə, ardıcıl, qətiyyətli qayıdış idi".***

30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə ulu öndər yekdilliklə Azərbaycan SSR-in və Naxçıvan MSSR-in deputatı seçilmişdir. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ulu öndərin sədrliyi ilə keçirilən ilk sessiyasında təkcə Naxçıvan üçün deyil, ümumən, Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik olan taleyüklü qərarlar qəbul edilmişdir. Sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmış, Naxçıvan MSSR Ali Soveti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılmışdır. Milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə bu sessiyanın tarixi qərarı ilə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilmiş, həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırılmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən mühüm məsələlər – 1990-cı il 20 Yanvar faciəsi və Dağlıq Qarabağ münaqişəsi də müzakirə edilmişdi.

Muxtar respublikanın əsl xilas və tərəqqisinin yalnız ümummilli liderimizin dühası sayəsində mümkün olduğunu çox yaxşı bilən Naxçıvan əhalisinin təkidli tələbi ilə 1991-ci ilin 3 sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilən görkəmli dövlət xadimi Naxçıvanı xalqımızın müstəqillik və müstəqillik uğrunda mübarizə mərkəzinə çevirmişdi. Bu gün 700 minə yaxın siyasi həmfikri öz ətrafında birləşdirən, iqtidar partiyası kimi liderliyi qoruyub saxlayan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, az vaxt ərzində böyük nüfuz qazanması da ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrünün bəhrəsidir. 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması ilə bağlı qərarla bu gün ölkəmizi 50 milyonluq azərbaycanlının vahid Vətəninə çevirən milli həmrəylik ideologiyasının təməli də həmin dövrdə qoyulmuşdur. Rus qoşun hissələri muxtar respublikadan çıxarılmış, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkili ilə Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlər görülmüş, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradılmışdır. Ulu öndər 1992-ci ildə tarixi Moskva və Qars müqavilələrini gündəmə gətirməklə Ermənistanın təcavüzkar siyasətini, Naxçıvanın muxtariyyət statusunu, əzəli Azərbaycan torpağı kimi toxunulmazlığını beynəlxalq miqyasda bir daha təsdiqləmiş, ağır blokada şəraitində olan muxtar respublika iqtisadi böhrandan çıxarılmışdır. Dahi öndərin Naxçıvandakı siyasi fəaliyyəti ərzində ərazinin erməni işğalından müdafiəsi, milli şüurun dirçəlişi, milli dövlət strukturlarının formalaşması kimi mühüm tarixi nailiyyətlər əldə olunmuş, xalqla həmrəyliyin təntənəsi öz təsdiqini tapmışdır. Azərbaycanın müstəqillik yolu 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumа "Yox!" deməklə məhz Naxçıvandan başlanmışdır. Müstəqilliyin başlanğıc illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Azərbaycanın əsl dövlətçilik məktəbi funksiyasını həyata keçirmişdir. Bu böyük tarixi şəxsiyyət, siyasi xadim Naxçıvanı qoruduğu kimi, Naxçıvan da öz dahi oğlunu tarixin ən sərt sınağında qədirbilənliklə qoruyub yenidən Azərbaycana bəxş etmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Ulu öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu öndərin həyat və fəaliyyəti, onun siyasəti şəxsiyyətlərin tarixdə rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti ulu öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır".***

Ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə Bakıya qayıdışı elə bir tarixi dövrə təsadüf edirdi ki, torpaqlarımızın Ermənistan tərəfindən işğalı, cəmiyyətin parçalanması, vətəndaş qarşıdurması Azərbaycanı dövlət müstəqilliyini itirmək kimi sonu görünməyən bir uçurum qarşısında qoymuşdu. Ölkəni bu vəziyyətdən yalnız siyasi təcrübəyə, diplomatik qabiliyyətə malik rəhbər xilas edə bilərdi. 1993-cü ilin 15 iyununda Milli Məclisin Sədri, həmin ilin 3 oktyabrında xalqın böyük dəstəyi ilə ölkə Prezidenti seçilən görkəmli dövlət xadimi on il ərzində əsrlərə bərabər işlər görmüş, müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi böyük tarixi missiyanı uğurla həyata keçirmişdir.

Məhz Heydər Əliyev dühası Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini, o cümlədən Azərbaycanın iqtisadiyyatını dağılmaq, məhv olmaq təhlükəsindən xilas etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin bütün siyasi uğurlarının əsasını təşkil edən, onu 50 milyonluq dünya azərbaycanlılarının ümummilli lideri səviyyəsinə yüksəldən milli dövlətçilik təlimi, Azərbaycançılıq məfkurəsidir. Azərbaycançılıq məfkurəsini yüksək dövlətçilik təlimi səviyyəsinə məhz Heydər Əliyev gətirmişdir.

Müstəqil Azərbaycan dövlətinin qazandığı tarixi nailiyyətlər, böyük zəfərlər ümummilli lider Heydər Əliyev dühasının təntənəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev beynəlxalq müstəvidə, eləcə də ölkə reallıqları çərçivəsində ümummilli liderin yolunu uğurla davam və inkişaf etdirməklə möhtəşəm nailiyyətlər ortaya qoymaqdadır. Neft və qeyri-neft sektorunun inkişafı, aqrar islahatların aparılması, insan amilinin yüksək dəyərləndirilməsi, elm, təhsil, mədəniyyət, səhiyyə, texnologiya kimi ən müxtəlif sahələrdə mühüm uğurların qazanılması bunu bir daha sübut edir. Ümummilli liderin həmişəyaşar siyasi kursu yeni dövrün, dünyəvi proseslərin reallıqları kontekstində bu gün uğurla inkişaf etdirilir.

Azərbaycanımızın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası da bu gün öz intibah dövrünü yaşayır. Qədim diyarımız uzun illərin blokada şəraitinə baxmayaraq, hərtərəfli inkişaf yolundadır. Yenidənqurma, tikinti, abadlıq işlərinin aparılması, çoxsaylı sosial obyektlərin və istehsal müəssisələrinin istifadəyə verilməsi, yeni iş yerlərinin açılması, əhalinin rifah halının yüksəldilməsi, əldə olunan nailiyyətlər muxtar respublikamızın möhtəşəm inkişaf və yüksəlişinin parlaq təzahürü olmaqla ulu öndər Heydər Əliyev ideyalarına tükənməz sədaqətin təntənəsidir.

*Xalqımızın ümummilli lideri, görkəmli siyasi xadim Heydər Əliyevin arzuladığı kimi, Azərbaycan bu gün dünyaya Günəş kimi doğmaqdadır. Bu Günəşin nüvəsi, əbədi enerji mənbəyi isə dahi şəxsiyyətin həmişəyaşar ideyalarıdır. Ümummilli liderin parlaq dühası, uzaq gələcəyə hədəflənmiş müdrik siyasəti bundan sonra da müstəqil Azərbaycanımızın bu gününə və gələcəyinə nur saçacaqdır.*

**"Şərq qapısı"**

# Qələbə bayramı muxtar respublikamızın şəhər və rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd edilib

## Naxçıvan şəhəri



*Mayın 9-da Naxçıvan şəhərindəki "Nuh yurdu" restoranında Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə alman faşizmi üzərində qələbənin 72-ci ildönümü münasibətilə çay süfrəsi arxasında tədbir keçirilmişdir.*

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov müharibə veteranlarını faşizm üzərində Qələbə Günü münasibətilə təbrik etmişdir.

Naxçıvan şəhərində yaşayan 1941-1945-ci illər müharibəsi veteranlarının və şəhər ictimaiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə İkinci Dünya müharibəsinin sovet-alman cəbhəsində qazanılmış tarixi qələbədən söz açılmış, bu qələbənin qazanılmasında bir çox xalqlar kimi, Azərbaycan xalqının, o cümlədən Naxçıvan əhalisinin misilsiz xidmətləri xatırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 aprel tarixli "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncamına uyğun olaraq, ölkəmizdə, həmçinin Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir. Sərəncama əsasən, 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000 (min) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilib.

Daha sonra müharibə veteranlarına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından hədiyyələr təqdim olunmuşdur.

**Qafar QƏRİB**

## Şərur rayonu



***1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qazanılan tarixi qələbənin 72-ci ildönümü münasibətilə Şərur rayonunda keçirilən tədbirin iştirakçıları müharibə veteranları ilə birlikdə əvvəlcə 1941-1945-ci illər müharibəsi zamanı həlak olan şərurluların xatirəsinə rayon mərkəzində ucaldılan abidəni ziyarət edib, abidə önünə tər güllər düzüblər.***

Çay süfrəsi arxasında davam etdirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov çıxış edərək alman faşizmi üzərində qələbənin qazanılmasında digər xalqlar kimi, azərbaycanlıların da göstərdikləri misilsiz igidlik və qəhrəmanlıqlardan danışıb.

Bildirilib ki, 1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri bugünkü gənc nəsil üçün vətənpərvərlik nümunəsidir. Odur ki, ölkəmizdə yaşlı nəslə, müharibə veteranlarına hər zaman xüsusi diqqət və qayğı göstərilir.

Qeyd olunub ki, ümummilli liderimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May respublikamızda Qələbə Günü kimi rəsmiləşdirilib, dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilir. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülür. Müharibə veteranları bu gün də hərtərəfli dövlət qayğısı əhatəsindədirlər. Ulu öndərimizin bu sahədəki fəaliyyəti də ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bayram ərəfəsində ölkə başçısının sərəncamı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsi veteranlarına, müharibədə həlak olanların və sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım edilməsi bunun bariz nümunələrindəndir.

Muxtar respublikada da 1941-1945-ci illər müharibəsi veteranlarına yüksək diqqət və qayğı göstərilir, onların həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülür, vaxtaşırı tibbi müayinələri və müalicələri həyata keçirilir, problemləri yerindəcə həll olunur.

Rayon İcra Hakimiyyətinin başçısı müharibə veteranlarını qələbənin 72-ci ildönümü münasibətilə təbrik edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şərur Rayon Təşkilatının sədri Əli Qəribov, Birləşmiş Həmkarlar İttifaqları Komitəsi Şərur Rayon Təşkilatının sədri Ünbülbanu Musayeva çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Şərur rayonundan 1941-1945-ci illər müharibəsində 4 mindən çox adam iştirak edib, onların 394 nəfəri həlak olub, 1395 nəfəri itkin düşüb. Bu gün rayonda 6 nəfər müharibə veteranı, həlak olmuş müharibə veteranlarının 123 nəfər dul arvadı, 160 nəfər isə arxa cəbhə veteranı yaşayır ki, onlar da hərtərəfli dövlət qayğısı ilə tam əhatə olunublar.

Tədbirdə rayon Mədəniyyət və Turizm Şöbəsinin hazırladığı ədəbi-bədii kompozisiya alqışlarla qarşılanıb.

**Elman MƏMMƏDOV**

## Babək rayonu



1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qələbənin 72-ci ildönümü Babək rayonunda da qeyd edilib. Bu münasibətlə keçirilən tədbirdə Babək Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivləri, eləcə də rayon sakinləri iştirak ediblər. Əvvəlcə Babək qəsəbəsindəki 1941-1945-ci illər müharibəsində həlak olmuş vətən oğullarının xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, müharibədə həlak olmuş qəhrəman vətən övladlarının xatirəsi ehtiramla yad edilib.

Sonra tədbir çay süfrəsi arxasında davam etdirilib.

Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək bildirib ki, 1941-1945-ci illər müharibəsinə indiki Babək rayonu ərazisindən 1275 nəfər yollanıb. Müharibəyə gedənlərdən 1058 nəfəri qəhrəmancasına həlak olub, bir çoxu müxtəlif orden və medallarla təltif edilib.

Çıxış edənlər bildiriblər ki, bu gün 72-ci ildönümünü qeyd etdiyimiz qələbənin qazanılmasında iştirak etmiş qəhrəman veteranlarımıza xalqımızın böyük oğlu Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra lazımi səviyyədə diqqət yetirilməyə başlanılıb. 9 May – Qələbə Günü ölkədə böyük təntənə ilə qeyd edilir, həlak olmuş soydaşlarımız ehtiramla yad olunur, sağ qalanlara yüksək səviyyədə qayğı göstərilir.

Vurğulanıb ki, erməni qəsbkarları tərəfindən işğal olunmuş torpaqlarımız tezliklə azad ediləcək, faşizm üzərində olduğu kimi, erməni vandalizmi üzərində də şanlı qələbə çalacağıq.

Veteranlardan Kazım Hacıyev çıxış edərək dövlətimiz tərəfindən onlara göstərilən qayğıya görə minnətdarlığını bildirib. Tədbirdə rayon Mədəniyyət Evinin musiqi kollektivlərinin ifaları alqışlarla qarşılanıb.

**Səbuhi HƏSƏNOV**

## Ordubad rayonu



***Ordubad rayonunda da 1941-1945-ci illər müharibəsində qələbənin 72-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları 1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış xatirə kompleksini ziyarət edərək abidə önünə gül dəstələri qoyublar.***

Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Ordubad Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyev açıb.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək 1941-1945-ci illər müharibəsində qələbənin 72-ci ildönümü münasibətilə veteranları təbrik edib. Elşad Məmmədov qeyd edib ki, Ordubad rayonunun qəhrəman övladları da həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq və igidlik nümunələri göstəriblər. Ordubad rayonundan cəbhəyə yollanan Nəcəfqulu Rəfiyev 1944-cü ilin yayında Minsk şəhəri yaxınlığında gedən döyüşlərdə, Baronoviçi şəhərinin azad edilməsində şücaət və qəhrəmanlıq göstərib, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 9 sentyabr tarixli Fərmanı ilə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb. Müharibə başlanandan Ordubad rayonundan cəbhəyə 3387 nəfər yollanıb, onların əksəriyyəti qanlı döyüşlərdə qəhrəmancasına həlak olub.

Tədbirdə YAP Ordubad Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Ordubad Rayon Təşkilatının sədri Fərrux Nağızadə müharibə veteranlarını yubiley münasibətilə təbrik edərək o illəri yada salıb, arxa cəbhədə insanların "Hər şey qələbə üçün" devizi altında göstərdikləri fədakarlıqlardan, dövrün gətirdiyi məhrumiyyətlərdən söz açıblar.

Çıxış edənlər qələbənin qazanılmasına Naxçıvanın, eləcə də Ordubad rayonunun igid övladlarının layiqli töhfəsi olduğunu, yüzlərlə rayon sakininin qələbə naminə canlarından keçdiyini, Azərbaycan diviziyalarının müharibə tarixinə parlaq səhifələr yazdığını, o cümlədən veteranların döyüşlərdə, arxa cəbhədə qəhrəmanlıq və böyük fədakarlıq göstərdiklərini diqqətə çatdırıblar.

Faşizmin dəhşətlərini gözləri ilə görmüş veteranlar Azərbaycan igidlərinin hünər səhifələri kimi tarixə yazılan müharibə xatirələrindən, döyüş səhnələrindən söhbət açaraq onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Tədbirə Ordubad Rayon Mədəniyyət Evinin "Dübəndi" instrumental ansamblının, qızlardan ibarət rəqs qrupunun rəngarəng ifaları xüsusi abhava qatıb.

**Fatma BABAYEVA**

## Culfa rayonu



Faşizm üzərində qələbənin 72-ci ildönümü münasibətilə Culfa rayonunda da tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə rayon mərkəzində 1941-1945-ci illər müharibəsində qəhrəmancasına həlak olan culfalıların xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoyublar.

Sonra tədbir çay süfrəsi arxasında davam etdirilib.

Tədbirdə çıxış edən Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev müharibə veteranlarını qələbə bayramı münasibətilə təbrik edərək bildirib ki, bu müharibədə, ümumilikdə, Culfa rayonundan 1180 nəfər iştirak edib, onların, demək olar ki, yarısı cəbhədən geri qayıtmayıb. Müharibə iştirakçılarının böyük əksəriyyəti döyüşlərdə göstərdiyi şücaətlərə görə müxtəlif orden və medallarla təltif edilib.

Müharibə veteranlarına ümummilli liderimiz Heydər Əliyev tərəfindən daim diqqət göstərildiyini deyən icra başçısı qeyd edib ki, ulu öndərimizin layiqli davamçısı İlham Əliyev tərəfindən hazırda bu iş uğurla davam etdirilir. Muxtar respublikamızda da veteranlar dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar.

Bildirilib ki, ölkə başçısının bu ilin aprel ayında imzaladığı müvafiq sərəncam 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə dövlət qayğısının daha bir təzahürüdür.

Sonra müharibə veteranlarına hədiyyələr təqdim edilib. Müharibə veteranları onlara göstərilən böyük ehtirama görə dövlətimizə minnətdarlıqlarını bildirib, tezliklə işğal altında olan torpaqlarımızda da Qələbə Gününün qeyd edilməsini arzulayıblar.

Tədbir Culfa Rayon Mədəniyyət Evinin musiqi kollektivlərinin çıxışları ilə davam etdirilib.

Sağlamlıq imkanları səbəbindən tədbirdə iştirak edə bilməyən veteranlara evlərində baş çəkilib, onlara hədiyyələr verilib.

**Nail ƏSGƏROV**

Ardı 4-cü səhifədə

## Kəngərli rayonu



***Faşizm üzərində qələbənin 72-ci ildönümü Kəngərli rayonunda da qeyd olunub. Qıvraq qəsəbəsində 1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidə kompleksini rayon ictimaiyyətinin nümayəndələri ziyarət edib, önünə tər qərənfillər qoyublar. Tədbir çay süfrəsi arxasında davam etdirilib.***

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək bildirib ki, bu gün 1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qələbənin 72-ci ildönümünü qeyd edirik. Bəşər tarixində ən dəhşətli müharibələrdən biri sayılan İkinci Dünya müharibəsində faşizm üzərində əldə olunan qələbə böyük tarixi hadisədir. Müharibəyə cəlb olunan keçmiş Sovetlər Birliyi respublikaları içərisində ümumi əhali sayına nisbətdə döyüşən orduya ən çox əsgər göndərən Azərbaycan idi. O dövrdə muxtar respublikanın əhalisi də döyüşlərdə şücaətlə iştirak edib, cəbhə üçün əlindən gələni əsirgəməyib. Qeyd etməliyik ki, həmin qanlı-qadalı illərdə indiki Kəngərli rayonu ərazisindən 968 nəfər müharibəyə səfərbər olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il aprelin 24-də imzaladığı növbəti Sərəncama müvafiq olaraq Kəngərli rayonunda 52 nəfərə birdəfəlik maddi yardım verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən 8 nəfərə pulsuz minik maşınları hədiyyə edilib.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Kəngərli Rayon Təşkilatının sədri İsmayıl Hüseynquliyev çıxış edərək müharibə veteranlarına göstərilən dövlət qayğısından danışıb.

Sonra rayon Mədəniyyət Evinin "Kəngər" instrumental ansamblının ifası tamaşaçılarda xoş ovqat yaradıb.

**Gülcamal TAHİROVA**

## Şahbuz rayonu

***1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qazanılan tarixi qələbənin 72-ci ildönümü münasibətilə Şahbuz rayonunda da tədbir keçirilib. Tədbirdən əvvəl rayon ictimaiyyətinin nümayəndələri Şahbuz şəhərindəki 1941-1945-ci illər müharibəsi qəhrəmanlarının xatirəsinə ucaldılan abidənin önünə gül dəstələri düzüblər.***



Çay süfrəsi arxasında davam etdirilən tədbirdə veteranları təbrik edən Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev bildirib ki, bu müharibədə şücaət göstərmiş yüz minlərlə azərbaycanlının keçdiyi şərəfli döyüş yolu bu gün dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Ön cəbhədə vuruşmuş, arxa cəbhədə fədakarlıq etmiş şahbuzlu veteranların xatirəsi də hər zaman dərin ehtiramla xatırlanır. Vurğulanıb ki, dövlətimizin müharibə veteranlarına göstərdiyi yüksək diqqət və qayğı əlaməti olaraq hər il 9 May Qələbə bayramının yüksək təntənə ilə qeyd olunması ənənə halını alıb.

Tədbirdə çıxış edənlərdən Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şahbuz Rayon Təşkilatının sədri Məmməd Bağırov, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının sədri Rizvan Məmmədov, 93 yaşlı müharibə veteranı Əli Xəlilov tarixi qələbənin qazanılmasında azərbaycanlı döyüşçülərin qəhrəmanlığından, xalqımızın fədakarlığından danışıblar.

Bildirilib ki, 1941-1945-ci illər müharibəsində 1500-dən artıq şahbuzlu könüllü olaraq cəbhəyə gedib, onlardan yarısı qəhrəmancasına həlak olub. Hazırda Şahbuz rayonunda yaşayan 6 nəfər müharibə veteranı və habelə arxa cəbhədə fədakarlıq göstərmiş veteranlar dövlətimizin onlara göstərdiyi diqqət və qayğını yaxından hiss edirlər.

Sonda veteranlara hədiyyələr təqdim olunub, rayon musiqi kollektivlərinin hazırladığı geniş konsert proqramı ilə tədbir davam etdirilib.

**✍ Əli CABBAROV**

## Sədərək rayonu

*Sərhəd bölgəmiz Sədərək rayonunda 1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qazanılan qələbənin 72-ci ildönümü münasibətilə keçirilən tədbirdə bölgə sakinləri, dövlət orqanlarının əməkdaşları, müəssisə və təşkilatların, ictimaiyyətin nümayəndələri fəal iştirak ediblər. Tədbirə böyük maraq göstərilməsinin əsas səbəblərindən biri də yaxın keçmişdə düşmənin faşizmə bərabər cinayətlərinə bu diyarın sakinlərinin şahidlik etmələri olub.*



Tədbir iştirakçıları əvvəlcə Sədərək kəndindəki Şəhidlər xiyabanına gedərək 1941-1945-ci illər müharibəsi və Azərbaycan Vətən müharibəsi iştirakçılarının əziz xatirəsinə ucaldılan abidələrin önünə və burada uyuyan türk əsgərinin məzarı üzərinə gül dəstələri qoyublar. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra tədbir Heydərabad qəsəbəsində çay süfrəsi arxasında davam etdirilib. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov çıxış edərək müharibə və arxa cəbhə veteranlarını qələbənin 72-ci ildönümü münasibətilə təbrik edib. Qeyd edib ki, 1941-1945-ci illər müharibəsində Sədərəkdən 462 nəfər iştirak edib. Onların 263 nəfəri qəhrəmancasına həlak olub. Rayonda müharibə veteranlarının mənzil və şəxsi minik maşınları ilə təmin edilmələri, onların müalicə olunmaq üçün müxtəlif sanatoriyalara, pansionatlara göndərilmələri, digər problemlərinin həll olunması üçün dövlətimiz tərəfindən bütün mümkün tədbirlər görülür.

Veteranlara qiymətli hədiyyələrin təqdim olunduğu tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası Sədərək Rayon Təşkilatının sədri Teymur Quliyev, İkinci Dünya müharibəsi veteranı Ələkbər Cabbarov çıxış edərək müharibə illərində qəhrəman oğul və qızlarımızın keçdiyi döyüş yolundan, göstərdikləri rəşadətdən bəhs ediblər. Çıxışlarda daha bir qələbənin tez bir zamanda düşmən tapdağı altında olan torpaqlarımızda qeyd ediləcəyinə əminlik ifadə olunub, dövlətimizin müharibə veteranlarına göstərdiyi qayğıya görə minnətdarlıq edilib.

Tədbirin bədii hissəsində rayon Mədəniyyət və Turizm Şöbəsinin "Qeyrət qalası" instrumental ansamblı üzvlərinin ifasında səsləndirilən mahnılar, ədəbi-bədii kompozisiya tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

**Sərxan İSMAYILOV**

## "Araz-Naxçıvan" futbol komandası "Heydər Əliyev kuboku" uğrunda turnirin qalibidir



***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda turnirə yekun vurulub.***

Final görüşünün açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov son illər muxtar respublika idmançılarının uğurlu çıxışını yaradılan infrastrukturla əlaqələndirib. Nazir bildirib ki, bu gün Naxçıvanın hər bir bölgəsində idman sahəsində mühüm addımlar atılır. Uşaq və yeniyetmələrin, gənclərin, hətta yaşlı nəslin idmanla məşğul olmaları üçün idman zalları, obyektləri istifadəyə verilib. Həmçinin Naxçıvanda futbolun inkişafı üçün şəhər və rayonlarla yanaşı, kəndlərdə də stadionlar gənclərin ixtiyarına verilib. Azad Cabbarov ulu öndərin xatirəsinə həsr olunmuş turnirdə iştirak edən hər bir komandaya gələcək oyunlarda uğurlar arzulayıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublika çempionatında iştirak edən komandaların mübarizə apardığı turnirin final görüşündə "Araz-Naxçıvan" və "DİN-Darıdağ" futbol komandaları üz-üzə gəlib. Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən həlledici matç öz gərginliyi ilə azarkeşlərin alqışına səbəb olub. Görüşdə üstünlük nümayiş etdirən "Araz-Naxçıvan" futbol komandası Tağı Seyidovun iki, Adil Xudaverdiyevin bir qolu sayəsində meydandan 3:1 hesablı qələbə ilə ayrılıb.

Görüşdən sonra hər iki komanda diplom və hədiyyələrlə, qalib olan "Araz-Naxçıvan" komandası kubokla mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev təqdim ediblər.

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş pauerliftinq və bench press idman növü üzrə keçirilən beynəlxalq turnirə yekun vurulub.***

## Naxçıvanda keçirilən beynəlxalq turnirə yekun vurulub



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində təşkil olunan turnirdə Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını, eyni zamanda Türkiyəni də təmsil edən 60-dan çox idmançı 12 çəki dərəcəsində mübarizə aparıb.

Azərbaycan Respublikası, eyni zamanda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri və Azərbaycan Respublikası Pauerliftinq Federasiyasının birgə təşkil etdiyi beynəlxalq turnir dörd gün davam edib.

Turnirin yekun nəticəsinə əsasən, bench press idman növü üzrə 60 kiloqram çəki dərəcəsində Vüsal Bağırov, 67,5 kiloqram çəki dərəcəsində Elvin Eynalov, 75 kiloqram çəki dərəcəsində Samir Məmmədov, 90 kiloqram çəki dərəcəsində Kamil Qafarov, 100 kiloqram çəki dərəcəsində Bəhlul Ağayev, 110 kiloqram çəki dərəcəsində Şahin Eyvazov və 140 kiloqram çəki dərəcəsindən yuxarı isə Əbülfəz Cəfərov bütün rəqiblərini qabaqlayaraq turnirin baş mükafatını qazanıblar.

Pauerliftinq idman növü üzrə keçirilən yarışda isə Anar Musayev (56 kiloqram), Elmir Tarverdiyev (67,5 kiloqram), Rövşən Xəlilov (75 kiloqram), Məmməd Rəhimov (100 kiloqram), Ramin Hüseynov (110 kiloqram), Razim Hüseynov, Alik Ağayev, Vüsal Mərdanov (125 kiloqram) hamıdan güclü olublar.

Qadınların mübarizəsində isə Zərifə Hüseynova, Sevil Həsənova, Günay Camalova və Xatirə Şahverdi müvafiq olaraq 56, 58, 61, 61,5 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Naxçıvanlı idmançıların beynəlxalq turnirdə uğurlu çıxışı diqqətdən yayınmayıb. İdmançılarımız, ümumilikdə, 5 qızıl, 6 gümüş və 6 bürünc medal qazanıblar. Belə ki, bench press idman növündə Bayram Əliyev (82 kiloqram) birinci, Rüstəm Bağırov (60 kiloqram), Məcid Məmmədli (67 kiloqram) ikinci, Ruslan Səfərov (75 kiloqram), Elmir Seyidov (82 kiloqram) və Elvin Mirzəyev (110 kiloqram) üçüncü olublar.

Pauerliftinq idman növündə Sadiq Məmmədov (82,5 kiloqram) və Gündüz Məmmədov (90 kiloqram) turnirin baş mükafatını qazanıblar. Digər idmançılarımızdan Məcid Məmmədli (67,5 kiloqram), Ruslan Səfərov (75 kiloqram), Allahverdi Allahverdiyev (90 kiloqram) və Elvin Mirzəyev (100 kiloqram) gümüş, Elmir Seyidov (82,5 kiloqram), Sadiq Nəcəfov (75 kiloqram) və Yusif Abbasov (100 kiloqram) bürünc medal qazanıblar.

Sinqer cədvəli, ekiprovka-təchizatda Bayram Əliyev (82,5 kiloqram) və Xaliq İsmayılov (110 kiloqram) birinci olublar.

Sonda qaliblərə təşkilatçıların diplom və medalları təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 381